Qarabağ Azərbaycandır!

QƏLƏBƏ

İctimai-siyasi qəzet

TƏSİSÇİLƏR: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ REDAKSİYANIN JURNALİST KOLLEKTİVİ

19 oktyabr 2020-ci il, № 27-28 (8.579) | Qəzet 21 fevral 1924-cü ildən çap olunur | qelebesalyan@gmail.com

"Heç bir qüvvə bizi dayandıra bilməz"

Prezident İlham Əliyevin müraciəti

Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.

Prezident İlham Əliyevin müraciəti:

-Əziz həmvətənlər.

Bu gün Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törədib. Gəncə və Mingəçevir şəhərləri raket atəşinə məruz qalıb. Bu namərd atəş nəticəsində soydaşlarımız həlak olub, yaralanıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı soydaşlarımıza Allah şəfa versin!

Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz.

Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar. Biz isə onların cavabını döyüş meydanında veririk. Şəhidlərin, günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq. Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib. Bütün Azərbaycan xalqı həmrəylik, vətənpərvərlik göstərir.

Müzəffər Azərbaycan Ordusu gedən döyüşlərdə düşmənləri bizim torpağımızdan qovur və qovacaqdır. Mən demişəm ki, öz xoşları ilə bizim torpaqlarımızdan çıxmasalar, biz onları iti qovan kimi qovacağıq və qovuruq. Müzəffər Azərbaycan Ordusu hər gün yeni strateji məntəqələri, yeni yüksəklikləri, yeni yaşayış məntəqələrini işğalçılardan azad edir. Bizim qisasımız döyüş meydanındadır.

Bu günlər ərzində - 27-si sentyabr tarixindən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulubdur. Sadəcə olaraq, vətəndaşlarımızın diqqətinə bəzi rəqəmləri çatdırmaq istəyirəm. Bildirməliyəm ki, çatdıracağım siyahı natamamdır, düşmənin daha böyük həcmdə texnikası məhv edilib və əlbəttə ki, döyüş zamanı bunun dəqiq hesablanması mümkün deyil. Ancaq gətirəcəyim rəqəmlər əyani şəkildə göstərir ki, biz döyüş meydanında tam üstünlüyü əldə etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Yəni bu, sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağısı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda, Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır? Bəzi hallarda bizə qarşı iradlar irəli sürülür ki, biz silahlanırıq, biz silah alırıq və bu, elə bil ki, vəziyyəti gərginləşdirə bilər, vəziyyəti məqbul olmayan məcraya istiqamətləndirə bilər. Ancaq sual olunur, bəs Ermənistan silahlananda? Bəs, bu kasıb, yoxsul ölkədə bu qədər silah-texnika haradandır və bu gün də onlara qaçaq yollarla, qaçaqmalçılıq sxemləri əsasında silahlar, texnika göndərilir və çox təhlükəli, böyük dağıdıcı gücə malik olan texnikalardır. Ona görə biz bu suallara cavab istəyirik və əminəm ki, biz bu cavabı alacağıq.

İndi isə son günlər ərzində Azərbaycan Ordusu tərəfindən məhv edilmiş Ermənistan texnikasının bir hissəsini xalqımın diqqətinə çatdırıram. Beləliklə, məhv edilmiş Ermənistan texnikası: tank - 234 ədəd məhv edilib, 36 tank hərbi qənimət kimi götürülüb, piyadaların döyüş maşını - 49-u məhv edilib, 24-ü hərbi qənimət kimi götürülüb. Özüyeriyən artilleriya qurğusu 16 ədəd məhv edilib, müxtəlifçaplı toplar 190, "Uraqan" sistemi 2, TOS odsaçan 1, əməliyyat taktiki raket kompleksi "Elbrus" 2, "Toçka-U" 1, OSA zenit raket kompleksi 35, TOR zenit-raket kompleksi 3, KUB və "Kruq" zenit raket kompleksi 5, radioelektron mübarizə sistemləri 9, S-300 zenit raket kompleksi 2, yük avtomobilləri 196-sı məhv edilib, 98-i qənimət kimi götürülüb. Hər bir adam, hər bir mütəxəssis bu texnikanın qiymətini açıq mətbuatdan götürə bilər və bu suallara biz cavab tapmalıyıq və tapacağıq.

Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!

Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzululiləri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir. Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir.

Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzululilər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzululilərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir.

Füzuli əməliyyatı rəmzi məna daşıyır. Bizim tarixi, qədimi yaşayış məskənimizi Azərbaycan özünə qaytardı, on minlərlə insanın o yerlərə qayıtmasını təmin etdi. Eyni zamanda, strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir. Çünki Füzuli istiqamətində yerləşən bizim hərbi qüvvələrimiz bu günlər ərzində orada döyüşlər aparırdı. İndi təbii ki, bu, sirr deyil, biz Füzuliyə hansı tərəfdən girə bildik. Hansı böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik. Ondan əvvəl Cəbrayıl şəhəri işğalçılardan azad edildi. Ondan əvvəl Hadrut işğalçılardan azad edildi. Xocavənd və Cəbrayıl rayonlarının, o cümlədən Füzuli rayonunun bir çox kəndləri işğaldan azad edildi. Məhz ondan sonra biz Füzuli şəhərini işğalçılardan azad edə bilmişik.

Düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Bu gün tam məsuliyyətlə deyə bilərəm ki, Füzuli əməliyyatı hərbi kitablara daxil ediləcək. Təkcə Füzuli əməliyyatı yox, başqa əməliyyatlar. Bu gün məndə olan məlumata görə, hərbi mütəxəssislər artıq açıq-aydın bildirirlər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur.

Bu gün tarixi bir gündür. On yeddisi oktyabr nəinki füzululilərin xatirəsində Azərbaycan dövlətinin tarixində əbədi qalacaqdır. Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədəbaba torpaqları işğalçılardan azad edilib.

Baxmayaraq ki, namərd, xain, alçaq düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur, bugünkü atəş nəticəsində azyaşlı uşaqlar da həlak olub, mən bir daha demək istəyirəm ki, biz qisasımızı mülki vətəndaşlardan almamalıyıq. Biz döyüş meydanında qisasımızı alırıq, alacağıq, şəhidlərimizin, həlak olanların qanı yerdə qalmır və qalmayacaqdır. Bir daha Ermənistanın faşist rəhbərliyinə xəbərdarlıq edirəm ki, qalan torpaqlardan öz xoşu ilə çıxsın. Onsuz da biz onları oradan rədd edəcəyik. Onsuz da onların izi-tozu da o torpaqlarda qalmayacaq. Onsuz da onları biz sona qədər qovub torpağımızdan rədd edəcəyik. Öz xoşu ilə getsin!

Füzulini təslim etmək istəmirdi. Halbuki başa düşürdü ki, bunu saxlaya bilməyəcək. Cəbrayılı təslim etmək istəmirdi. Dünən, srağagün və bu gecə Cəbrayıl istiqamətində də uğurlu əməliyyatlar keçirilibdir, strateji yüksəkliklər götürülübdür. Bu haqda hələ ki, mən bir şey demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Ancaq bu gün müzəffər Azərbaycan Ordusu öz məqsədinə çatır və çatacaq, bizim ərazi bütövlüyümüz bərpa edilir və ediləcək. Heç bir qüvvə bizi dayandıra bilməz. Heç bir qüvvə Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməz. Bunu hər kəs bilməlidir. Bizim qabağımızda heç kim dura bilməz. Çıxsın yırtıcı Ermənistan dövləti bizim torpağımızdan. Ondan sonra atəşkəs təmin edilər. Atəşkəs elan olundu, ondan bir gün keçmədi Gəncəni bombaladılar. Özü də haramı? Yaşayış massivlərini. Bu gün də haranı vurdular? Yenə də yaşayış massivlərini. Nə vaxt vurdular? Gecə saatlarında ki, daha çox insan həlak olsun.

Bu, insanlığa qarşı cinayətdir. Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq.

"Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri, nə oldu, indi demirsən "Qarabağ Ermənistandır". Gəl Füzuliyə, sən orada bizim torpağımızı istismar edirdin. Gəl Cəbrayıla, gəl Hadruta, gəl azad edilmiş başqa yerlərə, de ki, "Qarabağ Ermənistandır". Oturmusan orada - İrəvanda, oradan bəyanatlar verirsən, dünya liderlərinin zəhləsini tökürsən, adam qalmayıb ki, telefonla zəng etməyəsən.

Niyə demirsən "Qarabağ Ermənistandır". Qorxursan, qorxacaqsan. Bəs, Azərbaycan xalqını təhqir edəndə, "Qarabağ Ermənistandır və nöqtə" deyəndə niyə belə cəsarətli idin? Kimə güvənirdin? Kimə arxalanırdın? Bilmirdinmi ki, gün gələcək bu əməllərə görə cavab verəcəksən. Bu gün gəlibdir və gəlir. Şuşaya Livandan, başqa ölkələrdən erməniləri gətirib məskunlaşdırmaq hərbi cinayətdir, Cenevrə Konvensiyasına ziddir. Nümayişkaranə bunu edirlər, televiziyada göstərirlər, necə ki, ermənilər gəliblər bizim qədim torpağımızda yaşamağa, işləməyə. İndi baxım görüm kim gələcək Şuşaya məskunlaşmağa. Cəbrayıla yeni yol çəkirdin Ermənistandan. Nə üçün? O bölgəni, Arazboyu bölgəmizi qanunsuz yollarla zəbt edib, ondan sonra orada erməniləri məskunlaşdırmaq üçün? Bizi fakt qarşısında qoymaq istəyirdin. Ermənistanda əhali az olduğu üçün xaricdən erməniləri müxtəlif yollarla, o cümlədən onları aldadaraq gətirib orada məskunlaşdırmaq nə məqsədi daşıyırdı? Bizim tarixi torpaqlarımızı əbədi işğal altında saxlamaq, əbədi işğalı təmin etmək və bizim torpaqlarımızı erməniləşdirmək məqsədi? Baxın, onlar Füzuliyə hansısa bir eybəcər ad veriblər. Bu ad sizin başınıza dəysin. Bu ad cəhənnəmə getsin. Bu ad yoxdur artıq. Madagiz adı da yoxdur - Suqovuşandır. Biz başqa tarixi adlarımızı da bərpa edəcəyik. Şuşaya dırnaqarası qurumun parlamentini köçürürdün bəs. Get köçür, görüm necə köçürəcəksən! O saxta, quldur dəstə başçısının "andiçmə mərasimi"nin keçirildiyi yer nə gündə olub. Darmadağın etmişik oranı, darmadağın. Yeddi şərt qoyurdun bizim qarşımızda. Ultimatumla danışırdın. İndi görüm, hansı şərti qoyursan. Nə oldu bəs? Onun-bunun ətəyindən yapışıb, onun-bunun ayağının altına yıxılıb imdad diləyirsən ki, Azərbaycanı durdurun. Azərbaycana deyin ki, daha dayansın. Çıx torpağımızdan dayanaq. Rədd ol torpağımızdan dayanaq. Mən bunu demişəm, gizlətmirəm. Azərbaycan xalqı da bunu bilir, beynəlxalq aləm də bunu deyir. Hər gün bunu deyirəm, çıx de ki, sabah mən buradan çıxıram, dayanırıq. Bizə qan tökmək lazım deyil. Bizə torpaq lazımdır. Biz bu torpağı istənilən yolla alacağıq. Hər kəs bunu bilsin. Artıq son günlərin tarixi bunu göstərir.

Azərbaycan xalqını təhqir etmək sizə çox baha başa gəlir, Ermənistan rəhbərliyi, çox baha başa gəlir. Ermənistan əhalisi, nəhayət, bu kriminal rejimin başçılarını məsuliyyətə cəlb etməlidir. Artıq Ermənistanda hərbi komissarlıqlarda mitinqlər təşkil edilir, analar yolları kəsir, qoymurlar ki, uşaqları getsin başqa ölkənin torpağında ölsün. Mən də erməni xalqına müraciət etmişdim və bir daha müraciət edirəm: Qoymayın uşaqlarımızı! Nə işi var onların bizim torpağımızda? Öz ölkənizdə yaşayın. Bizim sizinlə heç bir işimiz yoxdur. Gedin yaşayın öz ölkənizdə, nə edirsiniz edin, amma bizim torpaqdan çıxın. Əminəm ki, erməni xalqı da öz cinayətkar xunta rejimi başçılarını məsuliyyətə cəlb edəcək. Biz isə haqq yolundayıq, ədalət yolundayıq. Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!

Biz döyüş meydanında gücümüzü göstərdik, həm düşmənə, həm də bütün dünyaya. Döyüş meydanında göstərdiyimiz güc və onun mənbəyi Azərbaycan xalqının iradəsidir, Azərbaycan xalqının istedadıdır və bizim əldə etdiyimiz uğurlardır.

Bir daha demək istəyirəm ki, biz xoşbəxt insanıq, bizim nəslimiz xoşbəxtdir ki, bu sevincli günləri görə bilirik. Mən özümü xoşbəxt insan hesab edirəm ki, bu sevincli xəbərləri doğma xalqıma çatdırıram. Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik.

Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev: Cəbrayıl rayonunun 13 kəndi azad edilib

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri azad edilmişdir. Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi Twitter hesabında bildirib.

Birinci vitse-prezident Mehriban Əliyeva: Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm

Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işgaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında edilən paylaşımda deyilir:

"Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri iğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

Müdafiə Nazirliyinin cəbhədəki vəziyyət barədə məlumatı

Oktyabrın 18-də gün ərzində və 19-a keçən gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində, eləcə də Araz çayı boyu müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları davam edib. Düşmən tərəfindən bölmələrimizin müdafiə mövqeləri atıcı silahlar, minaatanlar və toplardan atəşə tutulub.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

Eyni zamanda məlum olub ki, bir çox istiqamətlərdə döyüş mövqelərini itirən Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə döyüş mövqelərini ataraq geri çəkilib. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilib, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanıblar.

5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilib, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçıb. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da var. Alayın bölmələrində ərzaq, yanacaq və döyüş sursatlarının çatışmazlığı barədə məlumat əldə edilib.

İşğal olunmuş ərazilərdə döyüş mövqelərindən qaçan hərbi vəzifəlilərin, könüllülərin, həmçinin Ermənistana köç etmək istəyən 55 yaşına qədər kişilərin qarşısını almaq məqsədilə yollarda komendant postları qurulub. Bu məntəqələrdə avtomobillərin yoxlanılması zamanı çoxlu sayda silah-sursat, hərbi geyim və ləvazimat, eləcə də yataq dəstlərinin döyüş bölgəsindən çıxarılaraq Ermənistana daşındığı məlum olub.

Xalqımız öz Ali Baş Komandanı ətrafında yumruq kimi birləşmişdir

Azərbaycan Ordusunun cəbhədə Ermənistan Silahlı Qüvvələrinə sarsıdıcı zərbələr vurması, bir sıra yaşayış məntəqələrini azad etməsi, əldə etdiyi digər qələbələr vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız, həmçinin, bir sıra digər ölkələrin vətəndaşları tərəfindən də böyük sevinclə qarşılanır. Onlar sevinc və qürur hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər. Prezidentə ünvanlanan məktublar arasında həmyerlilərimizin də imzalarını görmək qürurvericidir. Rayon sakinlərindən Nəsib Qarayev, Vüqar Ağayev, Daşqın Cəbiyev, Vəliyyət Məmmədov, Xalidə İsmayılova, Sitarə Təhməzova, Aytən Ağalarova, Mehdi Həsənov, Elnur Hüseynov, Əliağa Yunusov, Tahir Gülnəzərov, Razıgül Dadaşova, Günay Əbilova, Gülər Quliyeva və başqaları yazdıqları məktublarda Ali Baş Komandanın ətrafında yumruq kimi birləşdiklərini bildirirlər.

Möhtərəm cənab Prezident,

İlk öncə sizə vətəndaşlarımıza göstərdiyiniz diqqət və qayğıya görə təşəkkür edirəm. Mən bir şəhid atası olaraq sizinlə fəxr edirəm ki, mənim oğlumun 1994-cü ildə 1-ci Qarabağ müharibəsində şəhid olduğu Murov dağı sizin göstərişiniz əsasında şanlı ordumuzun gücü ilə düşmən tapdağından azad edildi və yağı düşmənlərdən təmizləndi. Beləliklə, mənim oğlumun və orada şəhid olanların hər birinin qanı alınmış oldu. İnanıram ki, bütün işğalda olan rayonlarımızın hər biri mənfur düşmənlərimizdən alınacaq. Mən Salyan rayonu Sarvan kəndi əhalisi adından bildirmək istəyirəm ki, biz həmişə sizə dəstək olmuşuq və olacağıq. Həmçinin mən tam səmimiyyətimlə deyirəm ki, günü bu gün var gücümlə ordumuza dəstək olub döyüşməyə hazıram. Sizə bir daha bu şərəfli yolda uğurlar arzulayıram. Yaşasın Azərbaycan, Qarabağ Azərbaycandır!

Hörmətlə,
Qaraşov Cahangir Bahadur oğlu.
Salyan rayonu, Sarvan kəndi.

***

Hörmətli cənab Ali Baş Komandan.

Sizin qətiyyətli siyasi mövqeyiniz, uzaqgörən siyasətiniz və yorulmaz fəaliyyətiniz nəticəsində bu gün şanlı Ordumuz düşmən təxribatlarına çox layiqli və sarsıdıcı cavablar verir. Salyan rayonunun gəncləri Sizin rəhbərliyinizlə Azərbaycan Ordusunun qazandığı möhtəşəm zəfərlərlə qürur hissi keçirir və Sizi təbrik edirik.

Siz öz adınızı böyük hərflərlə Azərbaycan tarixinin şanlı səhifəsinə yazdırırsınız.

İnanırıq ki, işğal olunmuş torpaqlarımız Sizin komandanlığınızla geri alınacaq və bu torpaqlarda əzəmətli Azərbaycan bayrağı əbədi olaraq dalğalanacaqdır.

Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

Hörmətlə,
Araz Hüseynov.

***

Hörmətli cənab Ali Baş Komandan,

Hazırda işğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda gedən Vətən müharibəsində şanlı Ordumuzun qazandığı zəfərlər münasibətilə Sizi təbrik edir, bir vətəndaş olaraq sonsuz minnətdarlığımı bildirirəm.

İnşallah, Sizin rəhbərliyiniz altında qüdrətli ordumuzun sayəsində yaxın günlərdə işğaldan azad olunacaq doğma Qarabağımızın hər bir guşəsində Azərbaycanın üçrəngli bayrağı dalğalanacaq.

Allah Sizi, Ordumuzu və Xalqımızı qorusun!

Hörmətlə,
Quliyeva Gülər Beydulla qızı.
Salyan rayonu, Şəkərli kəndi.

***

Cənab İlham Əliyev, çox hörmətli Ali Baş Komandan!

Dövlətimiz üçün ağır, lakin gələcəyə böyük ümid yaradan bu günlərdə xalqımızın yumruq şəklində öz Ali Baş Komandanı ətrafında birliyini görmək çox xoş olmaqla yanaşı, məndə ölkəmizin gələcəyinə böyük ümidlər yaradır.

Hamı kimi mənim də sevincimin həddi-hüdudu yoxdur.

Yaşımdan asılı olmayaraq, ehtiyatda olan bir zabit kimi, mən də ordu sıralarında olmağı çox arzulayıram.

Gənclərimizin səfərbər olaraq ordu sıralarında torpaqlarımızın azadlığı uğrunda vuruşmaları məni hədsiz qürurlandırır və fərəhləndirir. Sizin komandanlığınız altında mübariz əsgər və zabitlərimizin düşmənə sarsıdıcı zərbələr vurması bizi hər gün zəfərə bir addım daha yaxınlaşdırır.

Yaşasın müstəqil Azərbaycan! Yaşasın Ali Baş Komandanımız və müzəffər Ordumuz!

Hörmətlə,
Ağayev Məhəmməd Rəfi oğlu.

***

Hörmətli cənab Ali Baş Komandan.

Sizin rəhbərliyinizlə Azərbaycanın Silahlı Qüvvələri müstəqillik tarixinin ən şərəfli yolunu keçir. Ard-arda gələn qələbə xəbərləri Vətənimizə, vətəndaşlarımıza böyük qürur verir. Siz Azərbaycanı alınmaz qalaya, Ordumuzu yenilməz qüvvəyə çevirmisiniz. Artıq Azərbaycan Ordusu böyük addımlarla zəfərə doğru irəliləyir. Şəxsən mən Qarabağ müharibəsi əlili olsam da, bir Azərbaycan övladı kimi döyüşə hazıram. Ali Baş Komandanlığımızla doğma torpaqlarımızın azadlığa qovuşmasına görə və bizə bu böyük sevinci yaşatdığınız üçün öz adımdan və rayonun Qarabağ qaziləri adından Sizə dərin təşəkkürümü bildirirəm. Allah Azərbaycan Ordusunu və Sizi qorusun!

Hörmətlə,
Arif Əsgərov
Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Salyan rayon təşkilatının sədri, II qrup Qarabağ müharibəsi əlili.

Silahlı Qüvvələrə Yardım Fondunun bank rekvizitləri

Bankın adı:	Azərbaycan Respublikası Beynəlxalq Bankı Binəqədi filialı
Bankın ünvanı:	Azərbaycan Respublikası, Bakı şəhəri Z.Bünyadov 30/12 bina 5A
Bankın telefonları:	(012) 562 99 41, (012) 562 93 37
Kod:	805584
VÖEN:	9900001881
Müxbir hesab:	AZ03NABZ01350100000000002944
S.W.İ.F.T Cod:	IBAZAZ 2X
Benefisiarın adı:	AR Müdafiə Nazirliyi (Silahlı Qüvvələrə Yardım Fondu)
VÖEN:	1300162621
Hesablaşma hesabları:	
AZN	AZ98IBAZ38040019449930010202
ABŞ DOLLARI	AZ88IBAZ38140018409930010202
AVRO	AZ68IBAZ38140019789930010202
RUSİYA RUBLU	AZ08IBAZ38140018109930010202

Dünyanın bir sıra tanınmış şair və yazıçılarından Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident,

Ölkənizin üzləşdiyi çətin vəziyyət və ərazi münaqişəsi bütün dünya ictimaiyyəti ilə yanaşı, biz yazıçı və şairləri də narahat edir. Lakin Sizin dərin zəkanız, mükəmməl diplomatik fəaliyyətiniz və xalqınıza olan sevginiz bizim hər birimizi qarşıdakı parlaq günlərə və xoşbəxt gələcəyə ümidləndirir.

Biz - yazıçı və şairlər, əslində, bütün müharibələrin əleyhinəyik, ancaq Sizin vəziyyətiniz bizim hər birimizi düşünməyə vadar edir. Siz başqa ölkənin torpaqları üçün döyüşmürsünüz. Siz ölkənizdə öz torpaqlarınız uğrunda vuruşursunuz.

Dünya siyasətçilərinin bildirdiyinə görə, artıq başqa çıxış yolu qalmayıbmış. Bu vəziyyət bizi inandırır ki, Azərbaycanın və onun xalqının gələcəyi üçün hərəkətə keçmək vaxtıdır.

Azərbaycan dünyaya bir çox uzaqgörən və müdrik insanlar bəxş edib. Ölkəniz xalqınızın mehribanlığı və qonaqpərvərliyi ilə məşhurdur. Biz əminik ki, həmin insanlar öz səbir və şəfqəti ilə nümunə olacaqlar.

Sizi və mehriban xalqınızı ürəkdən dəstəkləyirik.

Dərin hörmətlə,

Biplab Majee - Hindistandan şair, ədəbi tənqidçi

Gjeke Marinaj - ABŞ-dan Alban-Amerikan Yazarlar Cəmiyyətinin ilk prezidenti

Xosiyat Rustam - Özbəkistandan şair, tərcüməçi

Rosailba Fantastiko Di Kastron - İtaliyadan teatr tamaşalarının səhnələşdirməsi üzrə beynəlxalq mütəxəssis

Vadim Teryoxin - Rusiyadan Rusiya Yazıçılar Birliyinin həmsədri

Mai Van Phan - Vyetnamdan Vyetnam Yazarlar Birliyinin üzvü

Sovan Bhattaçarya - Hindistandan şair, yazıçı, beynəlxalq müsabiqələr laureatı

Daniela Andonovska-Trajkovska - Makedoniyadan "St. Kliment Ohridski" Universitetinin dosenti

Mehmet Nuri Parmaksız - Türkiyədən Elmi-Ədəbi Əsər Müəllifləri Birliyinin baş direktoru

Sungrye Han - Koreya Respublikasından şair, tərcüməçi, dosent

Coskun Karabulut - Türkiyədən şair, yazıçı

Rudolf Marku - Böyük Britaniyadan şair

Karlos Ernesto Qarsiya - İspaniyadan şair, yazıçı və jurnalist

Con Farndon - Böyük Britaniyadan Avrasiya Yaradıcılıq Gildiyasının sədri, şair

Ölməyə yox, öldürməyə hazır ol!

Şanlı əsgər, sən doğmasan,
əzizsən,
Sən dəli Kür, çalxalanan
dənizsən,
Sən yırtıcı vəhşiylə
üzbəüzsən,
Odur ki, düşmənə
nifrət ilə dol,
Ölməyə yox,
öldürməyə hazır ol!

Qarşındakı bil ki, insan deyildir,
Etdiyi səhvini anan deyildir,
Söz ilə mətləbi qanan deyildir,
Odur ki, düşmənə nifrət ilə dol,
Ölməyə yox, öldürməyə hazır ol!

Vətən nə adi söz, nə də həvəsdi,
Vətənsiz can ki var, quru nəfəsdi,
Rəhmsizə rəhm eyləmək əbəsdi,
Odur ki, düşmənə nifrət ilə dol,
Ölməyə yox, öldürməyə hazır ol!

Gör neçə vaxtdır ki, üzümüz gülməz,
Könlümüz açılmaz, gözümüz gülməz,
Xocalı dərdimiz ölçüyə gəlməz,
Odur ki, düşmənə nifrət ilə dol,
Ölməyə yox, öldürməyə hazır ol!

Əsirlikdə qan ağlayır ana yurd,
Yerə, göyə sığmaz bu kədər, bu dərd,
Sən mərd türk oğlusan,
düşmənsə namərd,
Odur ki, düşmənə nifrət ilə dol,
Ölməyə yox, öldürməyə hazır ol!

Sən İlhamtək sərkərdənin əsgəri,
Qarşındakı kölə, nökər, erməni.
Öldürməsən, öldürəcək o, səni,
Odur ki. düşmənə nifrət ilə dol,
Ölməyə yox, öldürməyə hazır ol!

Əzizağa Məmmədli.

Əl işdən soyumur

Rayonda pambıq yığımı davam edir

Erməni təxribatı nəticəsində işğal altında olan torpaqlarımız uğrunda savaş davam edir. Rəşadətli Milli Ordumuzun əsgər və zabitləri erməni təxribatçılarından fərqli olaraq mülki əhaliyə deyil, hərbi obyektləri dəqiq zərbələrlə məhv edir, 30 il tapdaq altında qalan torpaqlarımız qarış-qarış işğalçılardan təmizləyirlər. Bu uğurlu qələbələrimiz arxa cəbhədə çalışan əməkçilərmizdə də böyük ruh yüksəkliyi yaradıb. Respublikamızın pambıqçılıq bölgələrində olduğu kimi, Salyan rayonunda da pambıqçılar böyük ruh yüksəkliyi ilə çalışır, min bir əzab-əziyyətlə hasilə gətirdikləri məhsulu tez və itkisiz yığmağa çalışırlar.

Qeyd edək ki, cari təsərrüfat ilində rayonumuzda 5 min hektardan bir qədər çox pambıq əkilib. Becərmə dövründə tarlalara aqrotexniki qaydada qulluq göstərilib, nəticədə ötən ildəki ilə müqayisədə cari mövsümdə bol məhsul yetişdirilib.

Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Tariyel Atamalıyevin qəzetimizin əməkdaşına verdiyi məlumata görə, ötən il olduğu kimi bu il də pambığın əksər hissəsi maşınlarla toplanılacaq. Əgər ötən il pambığın 82 faizi pambıqyığan maşınlarla yığılmışdısa, bu il isə məhsulun maşınla yığımı 90 faizə çatdırılacaq. Bunun üçün sahələr vaxtında defolifasiya edilib, pambıq kollarının yarpaqları tökülərək hazırlıq vəziyyətinə gətirilib. Defolifasiya olunmuş sahələrdə məhsul yığımı üçün bu il tarlalara 26 ədəd pambıqyığan maşın cəlb edilib. Sürücü-mexanizatorlar xoş keçən əlverişli hava şəraitinin hər dəqiqəsindən səmərəli istifadə edir, məhsul yığımınının sürətini günbəgün artırırlar. Belə ki, hər bir sürücü-mexanik idarə etdiyi pambıqyığan maşınla gün ərzində 20-21 ton məhsul toplayır, hər gün 600 ton "ağ qızıl" yığılaraq tədarük məntəqələrinə göndərilir. Bu da əvvəlki illərlə müqayisədə ən yüksək, necə deyərlər, rekord nəticədir.

Yığım prosesində heç bir çətinlik müşahidə edilmir. Rəşadətli döyüşçülərimiz cəbhədə zəfərlər qazandığı kimi, arxa cəbhədə çalışan əməkçilərimiz də bol məhsul tədarük etməklə böyük uğurlara imza atırlar. Bu günə kimi rayon üzrə, ümumilikdə, 9758 ton məhsul yığılaraq tədarük məntəqələrinə təhvil verilib. Bunun 8425 tondan çoxu pambıqyığan maşınlarla toplanılıb. 1333 isə əllə yığılaraq təhvil verilib.

Onu da deyək ki, ötən il rayon üzrə pambıq tarlalarının hər hektarında 33 sentner məhsul yığılıb. Mütəxəssislərin fikrincə, cari təsərrüfat ilində isə rayon üzrə hər hektardan 35 sentner məhsul gözlənilir.

Hazırda rayonumuzda pambıq yığımı sürətlə davam edir.

Üzüm bağlarından 5 min tondan çox məhsul yığılıb

Salyanda üzümçülük əsas təsərrüfat sahələrindəndir. Fermerlər bu gəlirli sahəyə böyük maraq göstərdiyindən hazırda rayonda həyətyanı sahələrlə birlikdə 1122,5 hektar üzüm bağı mövcuddur ki, bunun da 932,9 hektarı barverəndir.

Xeyli vaxtdır üzüm plantasiyalarında məhsul yığımı davam edir. İndiyədək bağlardan 5 min 358,8 ton üzüm yığılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 150,3 ton çoxdur. Üzüm bağlarının 500 hektardan çoxu rayonun Xələc kəndi ərazisindədir. Burada şəkərliyi yüksək olan "Ağadayı", "Mahmudu", "Əlişan", "Ağ şanı", "Qara şanı", "Dərbəndi" və yerli qara üzüm sortları yetişdirilir. Ötən ilə nisbətən bu il bağlarda üzüm boldur. Məhsul çox olduğu üçün qiymət də ucuzdur. Bağbanlar yerində üzümün 1 kiloqramını 60-70 qəpiyə təklif edirlər.

Tarixi Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı ucaldı, müzəffər ordumuz onu əsl sahibinə qaytardı

Prezident İlham Əliyev xalqımıza daha bir qələbə müjdəsi verdi: Azərbaycan Silahlı Qüvvələri ədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar.

AZƏRTAC bu xoş xəbərin gəldiyi gündə məşhur Xudafərin körpülərinin tarixinə qısaca nəzər salır.

Azərbaycan memarlıq məktəbi üslubunda inşa olunmuş 11 tağlı Xudafərin körpüsü İran-Azərbaycan sərhədində, Araz çayı üzərində yerləşən XI-XII əsrlərə aid körpünün qalıqlarıdır. Daşdan tikilmiş və yaxşı yonulmuş iri daş lövhələrlə üzlənmişdi. Tədqiqatçılar onun XIII yüzildə, Elxanilərin (Hülakülər) hakimiyyəti illərində antik dövr körpüsünün qalıqları üzərində yenidən tikilməsi fikrindədirlər. Körpünün uzunluğu 130 metrə yaxın, eni 6 metr, çay səviyyəsindən hündürlüyü 12 metrdir. Hazırda üç orta tağı salamat qalıb, sahil tağları isə XX əsrin 30-cu illərində SSRİ-nin qərarı ilə dağıdılıb.

On beş tağlı Xudafərin körpüsü isə XIII əsrə aid edilir. Həmdullah Qəzvininin yazdığına görə, onu hicri təqvimi ilə on beşinci ildə (Miladi təqvimi ilə 639-cu il) Məhəmməd peyğəmbərin yaxın silahdaşı Bəkr ibn Abdullah tikdirib. Körpü tağlarının dayaqları təbii özüllər - qayalar üzərində ucaldığından aşırımlar müxtəlif ölçülü və sərbəst düzümlüdür. Bişmiş kərpic və çay daşlarından tikilmiş körpünün uzunluğu 200 metrə yaxın, eni 4, 5 metr, çay səviyyəsindən ən böyük hündürlüyü 12 metrdir.

İpək Yolunun üzərində yerləşən Xudafərin körpüləri haqqında tarixi mənbələrdə ətraflı məlumatlara rast gəlmək olur. Tarixə şahidlik edən bu körpülər qədim və orta əsrlərdə kommunikasiya vasitəsi kimi böyük rol oynayıb, Azərbaycan ellərinin cənubdan Qarabağa gedən köç yolunun əsas qovşağı olub.

Tarixən Azərbaycanın şimalı ilə cənubunu birləşdirən Xudafərin körpüləri həm də simvolik abidə hesab olunur. Azərbaycan memarlıq məktəbinin bu əzəmətli abidəsi dünyanın bir çox tarixçilərinin diqqətini cəlb edib. Xudafərin körpüləri Azərbaycan memarlarının müstəsna mühəndislik bacarığının ən gözəl nümunələrindən sayılır. Tədqiqatçıların bir çoxunun fikrincə, körpülərin dayaqları çayın ortasındakı olan təbii sal daşlar üzərində qurulduğundan ona "Xudafərin" adı verilib. Bu körpülərin Azərbaycanın Hindistandan başlayaraq Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa ölkələri ilə iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük rol oynadığı barədə fikirlər söylənilir.

Ermənistan silahlı birləşmələrinin 1993-cü ildə işğal etdiyi Cəbrayıl rayonunun ərazisində yerləşən Xudafərin körpüsünün üzərində 27 il sonra Azərbaycan bayrağı ucaldıldı. Qarabağda parlaq qələbələrə imza atan müzəffər ordumuz bu dəyərli abidəni özümüzə, əsl sahibinə qaytardı. Beləliklə, 2020-ci il oktyabrın 18-i tariximizə daha bir şanlı gün kimi yazıldı.

ÜST: Meditasiya, müsbət ünsiyyət və sağlam qida yüksək qan təzyiqinin qarşısını alır

Dünyanın yaşlı əhalisinin təxminən 30 faizi hipertoniyadan, yüksək qan təzyiqindən əziyyət çəkir. Bu vəziyyət, ürək-damar xəstəlikləri, insult, böyrək xəstəliyi və demensiya kimi ciddi nəticələrə gətirib çıxara bilər. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu barədə Arteriya Hipertoniyasına Qarşı Beynəlxalq Mübarizə Günü münasibətilə xatırladıb.

AZƏRTAC Birləşmiş Millətlər Təşkilatının Xəbərlər Xidmətinə istinadla bildirir ki, adətən mayın 17-də qeyd edilən bu tədbir, cari ildə koronavirus pandemiyası səbəbindən oktyabrın 17-nə keçirilib.

Yaşlılar üçün normal qan təzyiqi ürəyin daralması (sistolik) zamanı 120 mm civə sütunu səviyyəsində, ürəyin rahatlandığı (diastolik) vaxtda isə 80 mm civə sütunu səviyyəsində təyin edilir. Qan təzyiqi sistolik göstərici 140 mm, diastolik göstərici isə 90 civə sütunu səviyyəsindən çox olduqda qan təzyiqi yüksək hesab olunur.

Hipertoniyalı insanların əksəriyyətində bu xəstəlik adətən özünü heç bir simptomla büruzə vermir və buna görə də o "səssiz qatil" adlandırılır. Bəzən hipertoniya başağrısı, təngnəfəslik, başgicəllənmə, sinə ağrısı və ürəyin teztez döyünməsinə səbəb olur.

ÜST qeyd edir ki, bütün yaşlılar qan təzyiqlərini nəzarətdə saxlamalı, onu mütəmadi olaraq ölçməlidirlər. Hipertoniya riskinin qarşısının alınması və azaldılması üçün beş sadə addım atılmalıdır:

- duzlu və yağlı, yeməklərdən az istifadə edilməli; alkoqollu içkilərin istifadəsindən imtina edilməli; fiziki cəhətdən aktiv olub və normal çəki saxlamalı; tütündən istifadədən imtina edilməli; stressi nəzarətdə saxlamalı.

Tezliklə Zəngilanın da azad olunacağı xəbərini eşidəcəyik

Azərbaycanın gözəl və füsunkar guşələrindən biri olan Zəngilan rayonunun Ermənistan tərəfindən işğalından artıq 27 il keçir. 1993-cü il oktyabrın 29-da xaincəsinə qəsb olunan bu qədim yurd yerimiz uzun illərdir ki, düşmən əsarəti altındadır. Lakin erməni faşistləri heç də sevinməsinlər. Çünki şanlı ordumuz bu gün qalibiyyət yolundadır. Oktyabrın 4-də möhtərəm Prezidentimiz, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev xalqa müraciətində bildirmişdir ki, biz öz torpaqlarımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz dədə-baba torpağını işğalçılardan azad edir.

Ölkə başçımızın bu fikirləri hər bir azərbaycanlının ürəyindən xəbər verir.

Ermənistanın baş naziri həyasız-həyasız bəyan edir ki, guya ölkəsinin ordusu çox güclüdür. Lakin yaxın tarixə nəzər salsaq, bu fikirlərin nə qədər yalan və cəfəng olduğunu yəqin etmiş olarıq. Belə ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycanın düşmənlə təmas xəttində yerləşən mövqeləri Ermənistanın Silahlı Qüvvələri tərəfindən fasiləsiz olaraq atəşə tutulanda Milli Ordumuz nəinki düşmən təxribatının qarşısını aldı, həm də əks-hücum əməliyyatı ilə Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini, Tərtər rayonunun Madaqiz kəndi istiqamətində bəzi mövqeləri işğaldan azad etdi. 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşmən əsarətindən xilas edildi, bir sıra strateji baxımdan əlverişli yüksəkliklər ələ keçirildi, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü. 2020-ci il iyulun 12-də Ermənistan Silahlı Qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq hərbi təxribat törətdi. Lakin Silahlı Qüvvələrimiz Ermənistanın bu hərbi təxribatının qarşısını qətiyyətlə alaraq düşmən ordusunu canlı və texnika cəhətdən itkilərə məruz qoydu.

2020-ci il sentyabrın 27-dən başlayaraq davam edən döyüşlərdə Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirərək, işğal edilmiş torpaqlarımızın azad olunması üçün hərbi əməliyyatlar həyata keçirir. Silahlı Qüvvələrimiz özünün şərəfli missiyasını uğurla yerinə yetirir. Suqovuşanın, Cəbrayıl şəhərinin, Cəbrayıl rayonunun əksər kəndlərinin, bir çox strateji yüksəkliklərin azad edilməsi hər bir Azərbaycan vətəndaşında qürur hissi doğurur. Ordumuzun güclü əks-hücumunun təzyiqlərinə tab gətirə bilməyən erməni əsgərləri silahlarını, hərbi texnikasını, hətta bayrağını atıb rüsvaycasına qaçır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımızın ən böyük arzusunu reallaşdırmaqda davam edir. Dövlətimizlə, ordumuzla həmrəylik nümayiş etdirən xalqımız Vətən müharibəsində əlindən gələn bütün köməklikləri göstərmək istəyir.

Qəhrəman, igid həmvətənlərimiz BMT-nin Təhlükəsizlik Şurasının, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların yerinə yetirə bilmədikləri problemi həll etmək üçün ağır döyüşlərə atılmış, öz xoşuyla getmək istəməyən düşməni torpaqlarımızdan biryolluq qovmaq üçün israrlıdırlar. Öz ordularının "məğlubedilməz" olduğunu bütün dünyaya car çəkən erməni faşistləri dabanlarına tüpürərək qaçmaqdadırlar. Varlıqlarında vətənə məhəbbət hissləri coşub-çağlayan Azərbaycanın vətənpərvər övladları bu tarixi günlərdə, sözün əsl mənasında, erməni işğalçılarına divan tuturlar.

Zəfər yürüşünü uğurla davam etdirən ordumuzun qətiyyəti sayəsində tezliklə Zəngilanın da azad olunacağı günün yetişəcəyinə xalqımız ürəkdən inanır.

Vətənpərvərlik hissi kiçik yaşlardan aşılanır

-Haqq işimiz uğrunda sentyabrın 27-dən başlanan savaşın ilk günlərindən cəbhədən gələn xoş müjdəli xəbərlər xalqımızı sevindirdi. İllərdir düşmən əsarətində qalan kəndlərimizdə, yüksəkliklərimizdə dalğalandı üçrəngli bayrağımız. Hər kəs Milli Ordumuzun zəfər yürüşlərindən danışdı. Qəlbi fərəh hissi ilə dolan hər kəs özünü bir əsgər sandı. Mən də Salyan şəhər 4 saylı tam orta məktəbdə ibtidai sinif müəllimiyəm. İkinci siniflərə dərs keçirəm. Uşaqların hərbi formada dərsə gəlməsi fikrimi valideynlərlə bölüşdüm. Onlar böyük razılıqla bu fikrə dəstək oldular. Qısa müddətdə uşaqlar, eləcə də özüm hərbi formada dərsə gəlməyə başladıq.

Bu sözləri redaksiyamıza gələn şəhər 4 saylı tam orta məktəbin müəllimi Zülfiyyə xanım Abasova söylədi. Bizi öz sinfinə dəvət etdi. Getdik, gördük, qürurlandıq, yazı hazırlayıb səhifəmizdə yerləşdirdik.

Milli atributlarımız ilə bəzənən sinif otağında dərs keçir Zülfiyyə xanım. "Qarabağ Azərbaycandır" şüarı asılıb divardan. Hər partanın üzərində stolüstü bayrağımız var. Müəllim deyir ki, uşaqlar bayrağı o qədər sevib əzizləyirlər ki, hətta ehtiyatla davranıb onun yerə düşməsinə razı olmurlar. Bir dəfə şagirdlərdən biri ehtiyatsız tərpənib onu partasından düşürəndə gördüm ki, bayrağı dizləri üstünə qoyub təmizlədi, öpüb alnına dayadı. Sonra öz-özünə "Bağışla, bilmədim",-dedi. Çox kövrəldim. Uşağı bağrıma basdım. Deməli, belə başlayır vətənpərvərlik hissi.

Hər gün dərslərinə Dövlət Himnimizi oxumaqla başlayır II "a" sinfinin şagirdləri. Sonra "Azərbaycan əsgəri" marşını xorla oxuyurlar. Beləcə dərs başlanır.

Cəbrayılın düşməndən azad olması xəbərinin səhərisi günü məktəbin foyesində bu tədris ocağının məzunu, haqq işimiz uğrunda savaşlarda şəhid olmuş məktəbin məzunlarının portreti asılmış guşə qarşısında Vətənə, torpağa, əsgərlərimizə aid şeir və mahnılar söylədilər uşaqlar.

Sinifdə uşaqların fikrini öyrənirik. Biri əsgər, biri topçu, biri tankçı, biri hərbi həkim olmaq istədiyini bildirdi. Gördük ki, bu uşaqların vətənpərvər ruhda böyüməsi üçün əlindən gələni edir Zülfiyyə xanım. Bildirir ki, bu ruh, bu hiss gərək kiçik yaşlarından aşılana uşaqlara. Anasını sevən uşaq əvvəlcə evini, yurdunu, sonra da Vətənini sevməyə alışa. Bir sözlə, gərək getdikcə formalaşa vətənpərvərlik hissi. Beləcə, Ana Vətənimizi qorumaq üçün layiqli vətəndaşlar böyüyür bu sinifdə.

LEYLA.

Oktyabrın 21-i Xəlil Rza Ulutürkün doğum günüdür

Azadlıq yolunda məşəl kimi yandı

Özünün əzəmətli poeziyası ilə qəlbləri riqqətə gətirən, ürəkləri fəth edən, könülləri ovsunlayan azadlıq mücahidi, xalq şairi, "İstiqlal" ordenli, filologiya elmləri doktoru Xəlil Rza Ulutürk 1932-ci il oktyabrın 21-də Salyan rayonunun Pirəbbə kəndində dünyaya göz açıb. 1949-cu ildə Salyan şəhər 2 saylı orta məktəbi bitirib. Elə həmin il Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olub. Moskvada Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun məzunu olub. "Kitab" adlanan ilk şeiri 1948- ci ildə "Azərbaycan pioneri" jurnalında işıq üzü görüb. 1954-cü ildə SSRİ Yazıçılar İttifaqının üzvü olan gənc şairin "Bahar gəlir" ilk şeirlər kitabı çap olunub və ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb.

Şair həmişə Azərbaycanı müstəqil görmək arzusu ilə yaşamış, bu istək, bu amal, bu əqidə naminə özünün qüdrətli poeziyasının gücü ilə inadla, yorulmaq bilmədən mübarizə aparmış, bu yolda bütün çətinliklərə mətanətlə sinə gərmişdir:

Nə rahatlıq bildin, nə də ki, dinclik,
Yandı, alovlandı məşəl bir ürək.
Sən öz gəncliyini xalqına verdin,
Bəlkə də sonuncu damlasınadək.

8 ay 13 gün müdhiş Lefortovo zindanının divarları arasında qalmağa məcbur olunan Xəlil Rza Ulutürk ruhdan düşməmiş, yaradıcılığını davam etdirmişdir. Şair zindanda 2000 səhifədən artıq şeirlər yazmışdır. Bu şeirlərdə də mübarizlik, döyüş ruhu üstünlük təşkil edir:

Təslim olma, əcəli uzaqlara itələ,
Sən dəmirsən, bütöv tap, iradəni itilə!
Qəzet, kitab tükənsə,
Öz beynini aç, oxu,
İnsan özü kitabdır.

Lirik duyğulu, sevgi, məhəbbət hissləri ilə yoğrulmuş şeirlərində bu böyük sənətkarın səmimiliyi, qəlb çırpıntıları açıq-aşkar duyulmaqdadır:

Sənin nəfəsindir mənim nəfəsim,
Gözlərinin odu gözlərimdədir.
Sənin ciyərindən güc alır səsim,
Eşqimin qüvvəti dizlərimdədir.

Digər janrlarda olduğu kimi, qüdrətli sənətkar qəzəl janrında da gözəl poeziya nümunələri yaratmağa müvəffəq ölmuşdur. İnsana yüksək əhval-ruhiyyə, xoş ovqat, bədii-estetik zövq aşılayan bu şeirlər şairin parlaq istedadını açıb göstərməklə onun tükənməz ilhamını, yaradıcılıq potensialını bir daha nümayiş etdirir:

Sən dan şəfəqi, mən qızaran
Bir dəniz-ayna,
Ey dan yeri, bir ləhzədə
xülya kimi getdin.
Sənsizliyə dözməm, evim,
Övladım, adımsan,
Sən canlı əlifbam, əlifim..."A" kimi getdin.

Azadlıq şairi təkcə poeziya aləmində deyil, ədəbiyyatşünaslıq və tərcümə sahəsində də qələmini uğurla sınamışdır.

Xəlil Rza Ulutürk 1994-cü ildə dünyasını dəyişəndən sonra da dövlətimiz tərəfindən onun çoxşaxəli, zəngin irsinə diqqət və qayğı ilə yanaşılmış, xatirəsi daim əziz tutulmuşdur. Salyan şəhərinin geniş və yaraşıqlı küçələrindən biri bu görkəmli şairin adını daşıyır. Xəlil Rza Ulutürk küçəsi ilə bu böyük sənətkarın oğlu, Azərbaycanın Milli Qəhrəmanı Təbriz Xəlilbəylinin adını daşıyan küçənin qovuşduğu yerdə "Ata-oğul" abidəsi ucaldılmışdır.

Daim vətən eşqi ilə alışıb-yanan, xalqını böyük məhəbbətlə sevən, özünün döyüşkən, mübariz ruhlu poeziyası ilə milyonların sevimlisinə çevrilən Xəlil Rza Ulutürk heç vaxt unudulmayacaq, zaman-zaman xatırlanacaq, hörmətlə yad ediləcəkdir.

Əzizağa Məmmədli.

Veteran əsgərin 70 yaşı tamam olur

Rasim Məmməd oğlu İbrahimovu Salyan ictimaiyyəti yaxşı tanıyır. Orta boylu, gülərüz bu insan uzun müddətdir ki, istehsalatda və ictimai həyatda daim aktiv həyat tərzi keçirmişdir. Biləndə ki, onun artıq 70 yaşı var, düzü, inanmadıq. Həqiqət isə belə idi.

Keçmiş dəmiryolçu 1950-ci il oktyabr ayının 17-də Salyan rayonunda, hamının "stansiya" dediyi, əslində isə 20 Yanvar şəhidlərinin xatirəsinə "20 Yanvar" adlandırılan yaşayış massivində anadan olmuşdur.

Rasim İbrahimov 1957-65-ci illərdə 27 saylı dəmiryol məktəbində orta təhsil aldıqdan sonra Bakı Dəmir Yolu Texnikumunda təhsilini davam etdirmişdir. Arzusu, istəyi yaşayış massivi sakinlərinin çoxunun ad-san qazandığı dəmiryolçulardan biri olmaq idi. Lakin həyat onu başqa sahədə sınağa çəkdi. 1971-ci ilin dekabrından 1974-cü ilin noyabr aymadək Ukraynanın Jitomir şəhərində hərbi xidmətdə oldu. Daha sonra isə doğma Salyana qayıtdı. Dəmir yolu idarəsində çalışmağa başladı. Necə deyərlər, hər şey qaydasında idi…

1986-cı ilin may ayının əvvəlində dünyanı dəhşətli bir xəbər bürüdü. Ukraynada, Çernobl AES-də qəza baş vermişdir. Keçmiş SSRİ məkanında bütün respublikalardan bu faciənin aradan qaldırılması üçün qüvvələr cəlb edildi. Həmin ilin iyun ayından sentyabr ayına kimi Çernobl AES-də baş vermiş qəzanın aradan qaldırılmasında rayonumuzdan 110 nəfər iştirak etmişdir. Onlardan biri də Rasim idi. Qəzanın nəticələrinin aradan qaldırılmasında fəal iştirak etdiyinə görə fəxri fərmana da layiq görüldü.

Bu qısa müddətli ezamiyyət onun həyat kredosunu demək olar ki, tamam dəyişdi. Qəzanın aradan qaldırılmasında iştirak edən həmyerlilərinin problemlərinə can yanğısı ilə yanaşmağa başladı. Əlindən gələn köməyi də əsirgəmədi. Onun bu fəallığı diqqətdən yayınmadı. 2003-cü ilin fevral ayından Salyan Çernobl Əlilləri Cəmiyyətinin rəhbərliyi ona etibar edildi. Bu, ictimai təşkilat onun rəhbərliyi ilə bir sıra kütləvi mədəni tədbirlərin fəal iştirakçısı kimi yadda qalmışdır. O, bu ictimai vəzifədə 15 ildən çox fəaliyyət göstərdi. Cəmiyyət üzvlərinin sosial müdafiəsinin təmin olunmasında dövlətimizin göstərdiyi qayğı ilə tam əhatə edilməsində həmişə fəallıq göstərmişdir. İndi bu cəmiyyətin Salyanda 100-ə yaxın üzvü vardır. Hər il aprel ayının 26-sı-Çernobl qəzası gününün geniş ictimaiyyət tərəfindən xatırlanması üçün mətbuatda çıxışlar etmişdir. Çalışdığı müddətdə Salyan Rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikası Çernobl Əlilləri Cəmiyyətinin rəhbərliyi tərəfindən dəfələrlə fəxri fərmanlara və qiymətli hədiyyələrə layiq görülmüşdür.

Hazırda Rasim Məmmədov yaşına və səhhətinə görə ictimai işdən kənarda qalsa da, bu günlər çox qayğılıdır. Deyir ki, Azərbaycan Silahlı Qüvvələrinin döyüş yolunu gündəlik izləyirəm. Biz SSRİ məkanında xidmət etmişik. Bugünkü gənclərin isə qismətinə öz doğma torpaqlarımızın əzəli torpaqlarının erməni işğalçılarından azad edilməsi missiyası düşmüşdür. Halal olsun igid, qəhrəman əsgərlərimizə. Azad olunan kənd və qəsəbələrdə, rayon mərkəzlərində üçrəngli bayrağımız dalğalanır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımız qısa müddətdə yağı düşməndən azad ediləcəkdir. Yaşımız imkan verməsə də bir Vətən oğlu kimi, çağırışa biz də hazırıq.

Veteran əsgərə yeni qələbə xəbərləri eşitməyi və yubiley sevincləri arzuladıq.

Rüstəm.

Ana kur.az saytı fəaliyyətə başlamışdır

Qlobal internet şəbəkəsinin informasiya məkanına anakur.az adlı yeni ictimai-ekoloji xəbər portalı daxil olmuşdur. Sayt Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə "Ana Kür" Ekoloji Problemlərin Öyrənilməsinə Kömək İctimai Birliyi tərəfindən 2020-ci ildə icra olunan "Fəal istirahət və ekoturizmin təbliği istiqamətində tədbirlərin təşkili" layihəsi çərçivəsində yaradılmışdır. Sayt "az" dövlət domeni ilə fəaliyyət göstərən çox az xəbər portallarından biridir. Bu saytın fəaliyyətinə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar və Ekologiya və Təbii Sərvətlər Nazirlikləri müsbət rəy vermişlər. Artıq hər bir izləyici indi axtarış saytlarına daxil olaraq bu saytla ətraflı tanış ola bilərlər.

Xəbər portalının əsas məqsədi dünyada və ölkəmizdə baş verən ekoloji yeniliklər barədə maarifləndirici məlumatlar vermək, həmçinin, ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi və ekoloji siyasətin təbliği, cəmiyyət həyatının aktual məsələləri, vətəndaş cəmiyyəti, bölgə yenilikləri, ədəbi-bədii və digər maraqlı yeniliklərlə izləyicilərini məlumatlandırmaqdır.

Sentyabr ayının son ongünlüyündə fəaliyyətə başlayan *anakur.az* saytı hər gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun xilaskarlıq missiyası barədə Müdafiə Nazirliyinin məlumatları, cəbhə xəbərlərini yeniləyir. Dövlətimizin başçısının çıxışlarını yayımlayır.

Sayt yeni hərbi guşə açmış və burada cəbhə ilə bağlı məlumatlar yerləşdirilməkdədir. Qısa müddətdə xəbər saytını 300 nəfərdən çox ziyarətçi izləyərək baxış keçirmişdir.

Sayt ictimai əsaslarla işləyir və ciddi informasiya daşıyıcısı olan hər kəsi əməkdaşlığa dəvət edir. Bölgələrdə, xüsusən Kürboyu ərazilərdə baş verən hər bir yenilik bizim üçün çox maraqlıdır.

Arzumuz qələbə sorağını ilk xəbər verən saytlardan biri olmaqdır.

Yeni kompleks gübrə pambığın məhsuldarlığını təxminən iki dəfə artırmağa imkan verir

Azərbaycanlı geoloq və kimyaçı alimlər dünyada ilk dəfə vulkan palçığı əsasında yüksək göstəriciyə malik yeni kompleks gübrə əldə ediblər. Akademik Akif Əlizadənin rəhbərlik etdiyi Geologiya və Geofizika İnstitutunun alimlərinin yeni texnoloji üsulla aldıqları gübrə Salyanın Xələc kəndində sınaqdan keçirilib və uğurla nəticələnib. İnstitutun baş elmi işçisi, professor Mirəli Alosmanovun rəhbərliyi ilə həyata keçirilən sınaq məqsədli eksperimental tədqiqatlar həmin müəssisənin şöbə müdiri, professor Adil Əliyev, dosent Orxan Abbasov, eləcə də Kataliz Qeyri-üzvi Kimya İnstitutunun dosenti Zarema Cabbarova və Şahin Bağırov tərəfindən aparılır.

İndiyədək dünya miqyasında analoqu olmayan bu elmi ixtiramı kənd təsərrüfatı sahələrində sınaqdan keçirmək məqsədilə Salyan Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən rayonun Xələc kəndində yerli mülkiyyətçiyə aid bir hektar sahə ayrılıb. Həmin təsərrüfatda hazırlanmış yeni gübrə ilkin olaraq pambıq bitkisinin becərilməsi prosesində tətbiq edilib.

Geologiya və Geofizika İnstitutunun alimləri nəticə ilə tanış olmaq üçün təcrübə sahəsinə baxış keçiriblər. Fermer Yudif Nəzirovun ənənəvi üsullu becərilən sahələrindən fərqli olaraq, sözügedən gübrənin tətbiq edildiyi yanaşı sahədə yetişdirilən pambıq bitkisinin inkişafı və məhsuldarlığı müsbət mənada mütəxəssislərin diqqətini cəlb edib. Belə ki, bitkinin hündürlüyü, gövdəsi və kolunun budaqları digər yanaşı sahələrdəki pambıq kollarını xeyli üstələyir.

Ümumilikdə, orta hesabla yeni gübrə ilə yetişdirilən pambıq kolunda 60-dan çox açılmış pambıq və qoza qeydə alınıb. Hər qozadan alınan pambığın orta çəkisi 14 qrama çatır ki, bu da yüksək nəticə hesab edilir.

İnstitutun baş elmi işçisi, professor Mirəli Alosmanov təcrübənin ilkin nəticələri barədə məlumat verərək deyib: "Bu sahənin bir tərəfinə bizim hazırladığımız üzvi kompleks gübrə, digər tərəfinə isə indiyədək istifadə edilən başqa gübrələr səpilib. Gördüyünüz kimi, azərbaycanlı alimlərin əldə etdikləri yeni gübrənin səpildiyi sahə ilə, digər gübrələrin səpildiyi sahə arasında yerlə-göy qədər fərq var, məhsuldarlıq yüksəkdir. Bu, ümumilikdə, ölkəmizdə kənd təsərrüfatının inkişafı, məhsuldarlığın yüksəldilməsi baxımından çox əhəmiyyətlidir".

Fermer Yudif Nəzirov yeni üzvi gübrənin üstünlüklərindən söhbət açıb. "Pambıq sahəsinin yarısına azot, fosforkalium, yarısına da alimlərimizin icad etdiyi gübrəni səpmişdim. Sahələr arasındakı məhsuldarlıq fərqi göz qabağındadır. Ənənəvi gübrə verilən sahələrdə 1 hektarda məhsuldarlıq 25-30 sentner olursa, yeni kompleks gübrənin verildiyi sahədə bu göstərici 40-45 sentnerə çatacaq", - deyə o, vurğulayıb.

Hazırda alimlərin iştirakı ilə Salyan Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən məhsulun yığımı həyata keçirilir. Sonrakı mərhələlərdə yetişdirilən pambığın kəmiyyət və keyfiyyət parametrləri müəyyənləşdiriləcək və alınan nəticələr təhlil olunacaq.

Qeyd edək ki, Azərbaycan palçıq vulkanlarının diyarı hesab edilir. Palçıq vulkanlarının püskürməsi nəticəsində hər il yerin müxtəlif dərinliklərindən səthə milyon kubmetrlərlə brekçiya (vulkan palçığı) çıxır. Vulkan palçığının müalicəvi, həmçinin tikinti və kosmetologiya sahələrində istifadə edilməsi məlumdur. Lakin alimlərimiz indiyədək Azərbaycanda istifadə edilməyən vulkan palçığı xammalı əsasında kompleks gübrə hazırlayıblar və bu ixtira Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən patentləşdirilib.

"Asan Xidmət" Salyandadır

Səyyar "Asan Xidmət" oktyabrın 5-dən 19-na kimi öz səlahiyyətləri daxilində salyanlılara xidmət göstərmək üçün rayonumuza təşrif buyurmuşdur. İnsanlara xidmət zamanı bürokratizmə, süründürməçiliyə, heç bir narahatçılığa yol verməməklə fəaliyyət göstərən "Asan Xidmət"(Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi) hər bir Azərbaycan vətəndaşı tərəfindən məmnunluq və böyük razılıqla qarşılanır. Mütərəqqi cəhətləri, insanlara xidmətin asanlaşdırılması baxımından bu gün "Asan Xidmət"in təcrübəsindən dünyanın bir çox dövlətlərində geniş surətdə istifadə olunur.

Sabirabad Regional "Asan Xidmət"in sektor müdiri İsmayıl İsmayılov bildirdi ki, hal-hazırda Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərində "Asan Xidmət" mərkəzləri, Sabirabad, Bərdə, Masallı, İmişli, Kürdəmir, Tovuz, Şamaxı, Quba, Ağcabədi rayonlarında isə "Asan Xidmət" səyyari olaraq xidmət göstərir. "Asan Xidmət" rayon sakinlərinə vətəndaş pasportlarının, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, notariat xidmətləri, əmək pensiyalarının təyin edilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı və vətəndaş vəziyyəti aktlarının qeydiyyatı kimi məsələlərlə bağlı xidmət göstərəcəkdir.

Sektor müdiri söhbətimizin sonunda vurğuladı ki, səyyar "Asan Xidmət"in əməkdaşları Salyanda olduqları müddətdə sakinlərə nümunəvi xidmət göstərəcək, hər bir sakinin müraciət etdiyi məsələlərin həllində obyektivlik, operativlik və ədalətlilik kimi meyarları əsas götürəcəkdir.

"Diqqət uşaqlar!"

Respublikamızın ümumtəhsil məktəblərində yeni dərs ilinin başlanması ilə əlaqədar küçə və yollarda nəqliyyat vasitələrinin hərəkət intensivliyinin yüksək olduğu şəraitdə məktəblilərin təhlükəsizliyinin təmin edilməsi, xüsusi ilə uşaq və yeniyetmələrin yol hərəkəti ilə bağlı həyat və sağlamlıqlarının qorunması vacib məsələ kimi qarşıda durur. DİN rəhbərliyinin və yerlərdəki müvafiq qurumların bu sahəyə xüsusi diqqət yetirmələri nəticəsində ölkədə nəqliyyat vasitələri sayının ilbəil artması fonunda ümumi yol-nəqliyyat hadisələrinin, eləcə də qəzalarda ölən və yaralananların sayının azalmasına baxmayaraq, cari ilin 7 ayı ərzində respublika ərazisində uşaq və yeniyetmələrin iştirakı ilə baş vermiş yol-nəqliyyat hadisələrində 23 azyaşlının həlak olması, 75 nəfərin isə xəsarət alması ciddi narahatlıq doğurur.

Bu səbəbdən uşaq və yeniyetmələrin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktik tədbirlərin gücləndirilməsi, habelə yeni növ koronavirus (COVİD-19) infeksiyası ilə əlaqədar ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejiminə riayət edilməklə ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanması və tədris prosesinin effektivliyinin yüksəldilməsinə dövlət yol polisinin köməyinin artırılması olduqca vacibdir.

Bu məqsədlə cari il sentyabrın 5-dən oktyabrın 5-dək respublikamısın bütün bölgələrində olduğu kimi, Salyan rayonunda da "Diqqət uşaqlar!" adı altında hərəkət təhlükəsizliyi aylığı keçirilib. Belə ki, rayon təhsil şöbəsinin, məktəb və məktəbəqədər müəssisələrin əməkdaşları ilə birlikdə bu müəssisələrdə yol hərəkət qaydalarına dair profilaktiki və tərbiyəvi-təbliğat tədbirlərini keçirmiş, əsasən ibtidai siniflərdə əyani vasitələrin, eləcə də guşə və tədris otaqlarının yaradılmasını təmin etmişik. Hərəkətin təhlükəsiz təşkili və məktəbyanı sahəsi kiçik olan ərazilərdə şagirdlərin bir yerə cəmləşməsinin COVİD-19 xəstəliyinə yoluxma riskini artırması nəzərə alınmaqla, müvafiq qabaqlayıcı qədbirlər həyata keçirmişik. Bundan başqa, rayonun Heydər Əliyev prospekti və Təbriz Xəlilbəyli küçəsində plakatlar asılmış, nişanlama xətləri çəkilmiş, yararsız yol nişanları yeniləri ilə əvəzlənmişdir. Bir sözlə, "Diqqət uşaqlar!" aylığı çərçivəsində bütün profilaktik tədbirləri həyata keçirməklə azyaşlı uşaqların təhlükəsizliyini təmin etmişik. Bu proses bundan sonra da davam etdiriləcək.

Orxan Həsənov,
Salyan RPŞ-nin DYP-nin təbliğat və təşviqat şöbəsinin inspektoru, polis leytenantı.

Aqrar sığorta ilə bağlı Salyanda fermerlərlə görüşlər keçirilib

Azərbaycanda yaxın vaxtlarda tətbiqinə başlanacaq aqrar sığorta mexanizmi ilə bağlı yerli fermer və sahibkarların məlumatlandırılması məqsədilə Aqrar Sığorta Fondu (ASF) Salyanda fermerlərlə görüşlər keçirib. Görüşdə ASF-nin, "Aqrar Sığorta Müştərək Sığorta Şirkəti" ASC-nin nümayəndələri, fondun heyvandarlıq və bitkiçilik üzrə ekspertləri iştirak ediblər.

Salyanda yerli Dövlət Aqrar İnkişaf Mərkəzinin (DAİM) dəstəyi ilə təşkil edilən görüşlər rayondakı heyvandarlıq təsərrüfatlarında baş tutub. Görüşlərdə bitkiçilik, o cümlədən pambıq, üzüm və buğda əkini ilə məşğul olan fermerlər də iştirak ediblər.

Rayonun Aşağı Noxudlu kəndində yerləşən və fermer Əliqardaş Nuriyevə məxsus təsərrüfatda digər fermerlərin də iştirakı ilə keçirilən görüşdə kənd təsərrüfatı heyvanlarının sığortalanması ilə bağlı geniş məlumat verilib. Fermerlərlə heyvandarlıq sahəsi üçün risklər müzakirə edilib, sığortalanma və sığorta ödənişinin verilməsi prosesləri ilə bağlı tələblər açıqlanıb.

Görüşdə fermerlər heyvandarlıq və bitkiçilik sahəsindəki risklər, qarşılaşdıqları və onların təsərrüfatlarına zərər vuran təbiət hadisələri barədə məlumat verərək aqrar sığorta mexanizmi ilə bağlı öz təkliflərini səsləndiriblər.

Rayonun Qarabağlı kəndində fermer Qurban Abbasovun təsərrüfatında keçirilən görüşdə sığortalanan kənd təsərrüfatı heyvanları, onların saxlanma şəraiti ilə bağlı tələblər müzakirə edilib.

Fermerlərin diqqətinə çatdırılıb ki, aqrar sığortadan istifadə ilə bağlı əsas tələblərdən biri təsərrüfatın Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) qeydiyyatdan keçməsidir.

Xatırladaq ki, Azərbaycanda aqrar sığorta mexanizminin yaxın vaxtlarda fəaliyyətə başlaması nəzərdə tutulur. Aqrar sığorta vasitəsilə kənd təsərrüfatı heyvanları, kənd təsərrüfatı məhsulları və əkin sahələrini, eləcə də balıqları sığortalamaq mümkün olacaq. İlkin mərhələdə südlük inək-camışların, 14 növ bitki üzrə əkin sahəsi və məhsulların sığortalanması nəzərdə tutulur. Gələcəkdə aqrar sığortanın əhatə etdiyi sığorta predmetlərinin və risklərin siyahısı genişləndiriləcək.

Minnətdarlıq

Bütün dünyanı bürüyən COVİD-19 xəstəliyi bizim ailədən də yan keçmədi. İyul ayının 20-də 7 aylıq həmilə olan gəlinim Kərimli Lətifə Tofiq qızının halı pisləşdi. Profilaktik həkim tədbirlərinə baxmayaraq, temperaturu 39-40 dərəcədən aşağı düşmədi. Xəstənin vəziyyəti getdikcə ağırlaşdı. Salyan Rayon Mərkəzi Xəstəxanasının baş həkim müavini Nurlan Hüseynova müraciət etdik. Ailəliklə bilirdik ki, respublikanın bütün xəstəxanalarında boş çarpayı yeri yoxdur. Məhz Nurlan həkimin səyi nəticəsində Bakı şəhərində Semaşko adına xəstəxanada hamilə qadınlar üçün ayrılan korpusda boş yer müəyyən edildi. Təcili yardım məntəqəsinin həkimi Zahid Zeynalovun müşaiyəti ilə xəstəni həmin ünvana çatdırdıq. Həkimlərin diqqət və səyi nəticəsində gəlinimiz Lətifə sağalaraq doğma evimizə qayıtdı.

Oktyabr ayının ilk günündə Bakı şəhərində 5 saylı Doğum evində həkim Nəsibə Məhərrəmovanın sayəsində dünyaya sağlam bir oğlan uşağı gəldi. Beləliklə, gəlinim Lətifənin sağalmasında və dünyaya gələn balamızın sağ-salamat doğulmasında zəhməti olan bütün insanlara-Nurlan həkimə, Zahid həkimə, Nəsibə xanıma və təcili yardımın sürücüsü İlkin Orucova ailəmiz adından minnətdarlıq edirəm.

Ağamməd Kərimov,
Salyan şəhər sakini.

Etibarsızdır

Salyan rayon Aqrar İslahat Komissiyasının 26 noyabr 1999-cu il tarixli 12 saylı qərarı ilə Salyan rayonu Yenikənd kənd sakini mərhum Əliməy İsmayıl oğlu Əzizovun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-0025, kod-80905018) itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 24 sentyabr 1998-ci il tarixli 11 saylı qərarı ilə Salyan rayonu Yenikənd kənd sakini mərhum Rzayeva Sarıgül Qala qızının adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-835, kod-80905018) itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 24 sentyabr 1998-ci il tarixli 11 saylı qərarı ilə Salyan rayonu Yenikənd kənd sakini mərhum Rzayeva Sarıgül Qala qızının adına verilmiş Torpağın Mülkiyyətə Verilməsinə dair Şəhadətnamə (JN-295F, kod-80905028) itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 27 noyabr 1996-cı il tarixli 11 saylı qərarı ilə Salyan rayonu Quyçu kənd sakini Babayev Namid Pğababa oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-629, kod-80907048) itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Salyan rayon Marışlı kənd sakini Məmmədov Elman Nəriman oğlunun adına verilmiş xüsusi mülkiyyətə dair 809013036155 reyestr nömrəli, RX seriyalı, 0995828 nömrəli Çıxarış itdiyi üçün etibarsız sayılır.

Şəhidlər unudulmur

Torpağın altında rahat yat, Vətən oğlu



Azərbaycan, can vermişik adına,
Canımızdır adındakı can sənin.
Soyuq qəlblər yana bilməz oduna,
Namus sənin, şərəf sənin, şan sənin.

Xəlil Rza Ulutürk

Vətənin bu başı, o başı olmaz,-deyiblər. Vətənin çiçəyi də, gülü də, daşı da, kəsəyi də əzizdir. Çayı da, gölü də, dənizi də, çölü də, düzü də, yamacı da bizə doğmadır. Vətəni gülşənə, cənnətə döndərən, onu gözəlləşdirən isə insandır. Yer üzünün əşrəfi insan! İnsan! O, müqəddəs bir kainatdır,-deyib böyük Səməd Vurğun. Vətəni əzizləyən, onu göz bəbəyi kimi qoruyan , elinə, obasına bütün varlıqlarıyla bağlı olan oğullardır. Peyğəmbərimiz də buyurub ki, Vətəni sevmək imandandır. Belə imanlı mərd, cəsur oğullardan biri 16 oktyabr 1974-cü ildə Salyan rayonunun Çuxanlı kəndində dünyaya göz açmış Seymur Mirzağa oğlu İbişov idi. Dünyaya gəlişi ilə ata-anasına, doğmalarına sonsuz sevinc, fərəh bəxş edən Seymur illər keçdikcə böyüyür, yaşa dolurdu. O, kənd orta məktəbini bitirəndə artıq Qarabağ torpağında ağır döyüşlər gedirdi. O da digər qəhrəman soydaşlarımız kimi, Vətəni yağılardan qorumaq üçün cəbhəyə yola düşdü. Bir çox döyüşlərdə fəal iştirak edən Seymur igidliyi, şücaəti ilə fərqlənirdi. Komandiri, silahdaşları arasında hörmət qazanan igid həmyerlimizin qarşısında bir məqsəd, bir amal vardı:"nəyin bahasına olursa-olsun, mənfur düşmənin bədxah, işğalçı niyyətini gözündə qoymaq, ona layiqli dərs vermək. Bu arzu, bu istəklə döyüşdən-döyüşə atılırdı. Təəssüflər olsun ki, 1994-cü il mayın 11-də Kəlbəcərin Murovdağında gedən qanlı savaşda həlak olaraq şəhidlik məqamına yetişdi.

Tam əminliklə demək olar ki, qorxmaz eloğlumuzun başımız üstündə dolaşan ruhu şaddır. Çünki bu gün Milli Ordumuz qarşısıalınmaz zəfər yürüşü ilə bir çox kəndlərimizi, vacib yüksəklikləri, o cümlədən Murovdağ zirvəsini işğalçılardan azad etmişdir. Ordumuzun tezliklə düşmən əsarəti altında olan digər ərazilərimizi də azad edəcəyinə inamımız şübhəsizdir.

Ruhun şad olsun, əziz həmvətənimiz, ana torpağın altında rahat yat! Ölkə başçımızın da dediyi kimi, şəhidlərimizin qanı alınır və bundan sonra da alınacaq.

Artıq cəbhədən bir-birinin ardınca qələbə müjdələri gəlməkdədir. İnanırıq ki, bu zəfər xəbərləri davamlı olacaq, parlaq qələbəmizlə sonuclanacaq!

Vətəndən keçmədi, canından keçdi

Bu gün gərək
Hər anımız "Vətən!" desin,
Qılıncımız, qalxanımız "Vətən!" desin.
Məmməd Araz.

Belə bir müdrik deyim var:"keçmə namərd körpüsündən, qoy aparsın sel səni" Namərd körpüsündən keçməyərək Vətən naminə savaşa atılan yurdsevər həmyerlimiz İlham Ağababa oğlu İsgəndərov 1976-cı il oktyabrın 15-də Salyan rayonunun Arbatan kəndində dünyaya göz açmışdı. Kənd orta məktəbini bitirdikdən sonra 1994-cü ildə Azərbaycan Dövlət Neft Akademiyasına daxil olmuşdu. Ali məktəbi bitirdikdən bir müddət sonra Milli Orduya çağırılmışdı. Ağdam bölgəsində vzvod komandiri olan həmyerlimiz tabeliyində olan əsgərlərlə birlikdə vətənin müdafiəsində dayanmışdı. Baş leytenant İlham İsgəndərov bir çox döyüş əməliyyatlarının keçirilməsində bacarıqlı zabit olduğunu təsdiq etmiş, rəhbərlik etdiyi vzvod düşmənə sarsıdıcı zərbələr endirmişdi.

2002-ci il sentyabrın 29-u idi. İgid zabit silahdaşları ilə birlikdə 100 metr aralıda olan düşmən mövqelərinə nəzarət edirdi. Bu məqamda düşmən snayperindən atılan güllə qorxmaz həmyerlimizin alnını qana boyadı. Baş nahiyəsindən aldığı ağır güllə yarası onu şəhidlik zirvəsinə yüksəltdi.

Sentyabrın 30-da İlham İsgəndərovun cənazəsi anadan olduğu Arbatan kəndinə gətirildi. Böyük hörmət və ehtiramla rayonun Şəhidlər xiyabanında dəfn edildi.

İkinci Dünya müharibəsində böyük hərbi strateq sayılan Jukov bildirmişdir ki, Berlinə daxil olan beş diviziyadan biri - Azərbaycanın 416-cı Milli Diviziyası tərəfindən Reyxstaq üzərində qələbə bayrağı sancılmışdır. Bu gün Azərbaycan əsgəri işğaldan azad etdiyi Cəbrayıl şəhərində, bir çox kəndlərimizdə, yüksəkliklərdə üçrəngli bayrağımızı vüqarla dalğalandırır, xain, məkrli düşmənə gözdağı çəkdirir. Müzəffər ordumuz qələbə əzmi, zəfər yürüşü ilə Şuşanı, Xankəndini və digər yurd yerlərimizi də ermənı faşistlərinin tapdağından azad edəcək, bu qədim, gözəl məskənlərimizdə də şərəfimiz, qürur yerimiz olan bayraqlarımız göylərə ucalacaqdır. İlham və başqa şəhidlərimizin də ən böyük arzusu elə bu idi.

Arzuna çatmısan, əziz həmvətənimiz, qədirbilən xalqımız qəhrəman oğullarını heç vaxt unutmayacaq.

Allah rəhmət eləsin

"Salyan Plastik" Kütlə Emalı ASC-nin kollektivi iş yoldaşları Lazım Dadaşova, həyat yoldaşı

GÜLCAHANIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Salyan şəhər 2 saylı tam orta məktəbin kollektivi məktəbin texniki işçisi Yaqut Tahirovaya, əzizi

ALLAHVERDİ NOVRUZOVUN

qəhrəmancasına şəhid olmasından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Salyan şəhər 2 saylı tam orta məktəbin pedaqoji kollektivi Nuranə Əhmədovaya, qardaşı

VİDADİ ƏHMƏDOVUN

qəhrəmancasına şəhid olmasından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor: Rüstəm Məlikov

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-29-26
E.mail:qelebesalyan@gmail.com
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 325 Sifariş: 27-28
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və fiziki şəxs Zeynalov Bayram Nəzər oğluna məxsus "BZ" mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab №AZ17AİİB33070019444300222143
VÖEN:7000080071

Məsul növbətçi: Ə.B.Məmmədli